# Qədim Şəki müasirləşir və gözəlləşir

**Bu günlərdə Şəki Şəhər İcra Hakimiyyətində keçirilən geniş tərkibli şura iclasında ötən ilin uğurları təhlil olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Geniş hesabatla çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov qazanılan nailiyyətlərin əldə olunmasında dövlət dəstəyinin önəmli rol oynadığını qeyd etmişdir. Natiq vurğulamışdır ki, yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yekunlarına həsr olunan konfrans keçirilmişdir. Konfransda cənab Prezident regionların inkişafı ilə bağlı mövcud vəziyyəti və görüləcək işləri bir daha dərindən təhlil etmiş və yeni vəzifələr müəyyənləşdirmişdir. Ölkə başçısı demişdir: "Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək".**





Daha sonra natiq vurğulamışdır ki, 2018-ci ilin oktyabr ayı Şəki üçün olduqca əlamətdar hadisələrlə zəngin olmuşdur. Oktyabr ayının 29-da cənab Prezidentimiz İlham Əliyev Şəkiyə səfər etmişdir. Dövlətimizin başçısı Şəkidə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, Heydər Əliyev Mərkəzinin, Bayraq Muzeyinin, 7,2 km. uzunluğunda Şəki-Kiş avtomobil yolunun, Şəki "ASAN Həyat" kompleksinin , Heydər Əliyev Fondu tərəfindən inşa olunan qarışıq tipli uşaq evinin , "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı Şəki "ASAN Həyat" Kompleksinin əməkdaşları ilə görüşündə demişdir: **"Şəki bizim qədim tarixi şəhərimizdir, nəinki Azərbaycanda, bütün bölgədə öz təbiəti, memarlığı, mətbəxi ilə fərqlənən şəhərdir. Şəkinin tarixi simasını qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur, Azərbaycan dövlətinin borcudur və biz bunu edirik. Şəki öz qədim tarixi simasını saxlayaraq inkişaf edir, müasirləşir. Şəki rayonunda böyük infrastruktur layihələri icra edilir".**

2018-ci ilin oktyabr ayında cənab Prezidentimiz Şəki şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə 4 Sərəncam imzalamışdır. Qeyd etmək istəyirəm ki, cənab Prezidentimiz Şəkiyə 8 dəfə səfər etmiş, bu səfərlər zamanı 24 obyektin açılışında və təməlqoyma mərasimlərində iştirak etmiş, qısa müddətdə Şəkinin sosial-iqtisadi inkişafı ilə bağlı 18 Sərəncam imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daxili siyasətinin əsas istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Ölkəmizin başçısı Nazirlər Kabinetinin 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan yığıncaqda xüsusi olaraq vurğulamışdır ki, bu gün ölkəmizdə sahibkarlara böyük diqqət vardır. Onlar həm siyasi, həm də maddi tərəfdən dəstəklənir. Cənab Prezidentimiz demişdir: **"Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat. Sevindirici haldır ki, verilən kreditlər əvvəlcə verilmiş və sonra qaytarılan kreditlər hesabına verilir. Yəni büdcə bu məsələyə pul xərcləmir. Artıq bu vəsait akkumulyasiya olunub. Biz sahibkarlara hər il bu cür dəstək göstəririk və göstərəcəyik. Sahibkarlara daha böyük kömək göstərmək üçün indi bir çox ölkələrə ixrac missiyaları təşkil olunur".**

Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. Rayon ərazisində taxıl istehsalçıları tərəfindən ötən ilin payızında əkilmiş 66839 hektar taxıl sahəsində yetişən məhsulun vaxtında və itkisiz yığılması üçün tərəfimizdən zəruri tədbirlər görülmüş, sahələrdən 221 min ton məhsul istehsal edilmiş, orta məhsuldarlıq 33 sentner təşkil etmişdir ki, bu da ötən ilin istehsalından 7 min ton çoxdur. 2018-ci ilin payızında 2019-cu ilin məhsulu üçün rayonda 68068 hektar sahədə payızlıq taxıl əkini həyata keçirilmişdir.

Rayonumuz üçün spesifik hesab edilən baramaçılığın, tütünçülüyün, fındıqçılığın inkişafının təmin edilməsi istiqamətində ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün geniş iş aparılır. Şəki həm də tarixən ipəkçilik diyarı kimi tanınır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı Sərəncam respublikamızda ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində atılan mühüm addımdır. Həyata keçirilən operativ tədbirlər nəticəsində bu sahədə ciddi dönüş yaranmış, "Azər İpək" MMC öz fəaliyyətini bərpa etmişdir. Qısa müddətdə ipəkçiliyin inkişafı sahəsində görülən tədbirlər şəhər əhalisinin məşğulluq probleminin həll olunmasında mühüm rol oynamış, ötən il 514 ton yaş barama tədarük etmiş, müəssisənin ilboyu işləməsi üçün zəmin yaranmışdır. Hazırda müəssisədə 600 nəfərə yaxın işçi çalışır ki, onun da 70 faizini qadınlar təşkil edir. Bu isə gender məsələsinin uğurlu həllinə xidmət edir. Bu gün keyfiyyətli Şəki ipəyindən hazırlanan müxtəlif məhsulların Avropa bazarlarına çıxarılması istiqamətində iş aparılır. Milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan ipəkçiliyin inkişafı barama istehsalının artırılmasını tələb edir. Bu məqsədlə yem bazasının genişləndirilməsi üçün son 3 ildə baramaçılıqla məşğul olan kəndlərdə 376570 ədəd tut tingləri əkilmiş, yeni kümxanalar qurulmuşdur. Baramaçılığın inkişafı ilə bağlı həyata keçirilmiş tədbirlər rayonda barama istehsalının dinamik inkişafına müsbət təsir göstərmişdir. Belə ki, rayonda 2018-ci ildə 48,2 ton barama istehsal edilmiş, 2851 nəfər işlə təmin olunmuşdur. 2018-ci ildə kümçülər ümumilikdə 400 min manatdan çox gəlir əldə etmişlər.



Rayonda istehsal olunan ixracyönümlü məhsullardan birini də tütün təşkil edir. 2018-ci ildə 2977 ton quru tütün istehsal olunmuş, 2000 nəfərə yaxın insan işlə təmin olunmuş, orta məhsuldarlıq 33,9 sentner olmaqla, ölkə üzrə rekord göstərici təşkil etmişdir. Bu il 1030 hektar sahədə tütün əkini proqnozlaşdırılır. Tütün istehsalı sahəsində fərqləndiyinə görə rayonumuzun sakini Mustafayev Əlövsət Əmir oğlunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2018-ci il tarixli Sərəncamı ilə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması tütünçülərimizin əməyinə verilən ən böyük qiymətdir.

Qərzəkli meyvələrin vacib kənd təsərrüfatı məhsulu olması, təbabətdə və şirniyyat istehsalında önəmli rol oynaması, rentabelli olması və sair amillərə görə istehsalının genişləndirilməsinin vacibliyini nəzərə alaraq əhali arasında yeni qərzəkli bağçılıq təsərrüfatlarının yaradılması istiqamətində maarifləndirmə tədbirləri həyata keçirilir və bu sahəyə xarici investorların cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılır. 2018-ci il ərzində 650 hektar ərazidə yeni fındıq bağı salınmışdır.

2018-ci ildə Şəkidə kənd əhalisinin içməli və suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" imzaladığı sərəncamlara əsasən son beş ildə rayonumuzun müxtəlif yaşayış məntəqələrində 60 subartezian quyusu qazılmış, nəticədə suvarma işləri yaxşılaşdırılmış, dövlət suvarma şəbəkələrinin fəaliyyəti gücləndirilmişdir.

Məhz cənab Prezidentimizin tapşırıq və tövsiyəsinə uyğun olaraq rayonumuzun Bolludərə, Qaratorpaq və Sarıca kəndləri ərazisində "Aqroinkişaf 2017" MMC tərəfindən icarəyə götürülmüş 8969 hektar sahədə aqropark yaradılır. Aqroparkın istifadəsinə verilən torpaq sahəsinin Bolludərə kəndi ərazisində yerləşən hissəsində 194 hektarda müasir aqrotexniki qaydada qoz bağı salınmışdır. 194 hektar bağın 17 hektarını tinglik sahə, 177 hektarını isə qoz bağı təşkil edir. Aqroparkda suvarma işlərini həyata keçirmək üçün 700 min tonluq su anbarı və əkin sahələrinin müasir damcı üsulu ilə suvarılmasını təmin etmək üçün 700 tonluq əlavə su anbarı tikilir, ərazidə 7,5 km uzunluğunda sahələrarası yol çəkilir.

"Green Faktory" MMC tərəfindən rayonumuzda beynəlxalq standartlara cavab verən intensiv meyvə bağlarını və meyvə emalını özündə birləşdirən kompleks yaradılmışdır. Layihənin reallaşdırılması üçün Sahibkarlığa Kömək Miili Fondu xətti ilə alınmış güzəştli kredit vəsaitindən istifadə edilməklə İtaliya, Fransa və Türkiyədən gətirilmiş 61 min ədəd müxtəlif növ meyvə tingləri əkilmişdir. Şəkinin tarixən qərzəkli meyvələrin, o cümlədən şabalıdın yetişdirilməsi üçün əlverişli ərazilərdən biri olduğunu nəzərə alaraq bu il ilkin olaraq 15 hektar ərazidə şabalıd ağaclarının əkilməsi nəzərdə tutulmuşdur. Cənab Prezidentimizin tapşırığına əsasən əvvəllər əkinə tam yararsız olan, dağ çaylarının yataqları iri daşlardan və kol-kosdan təmizlənərək yaradılan kompleksin ərazisində yol infrastrukturu yaradılmış, bağın suvarılması üçün 20. 000 kubmetr tutumu olan su anbarı və irriqasiya sistemi yaradılmış, istehsal olunan meyvə məhsullarının saxlanılması üçün soyuducu kameralar, qablaşdırma, meyvə emalı və qurudulması üçün müasir standartlara cavab verən avadanlıqlar quraşdırılmışdır. Meyvələrin uzunmüddətli saxlanması üçün quraşdırılmış çeşidləmə və qablaşdırma avadanlığının istehsal gücü saatda 5 tona yaxındır. İrriqasiya sistemlərinin quraşdırılması İsrail şirkətləri tərəfindən həyata keçirilmişdir. Baş verən təbiət hadisələrinin təsərrüfata vurduğu ziyanın qarşısını almaq üçün ilk dəfə olaraq bütün il ərzində hava şəraitinə nəzarət edən meteo-nəzarət stansiyası və dolunun dağıdılması üçün xüsusi avadanlıqlar quraşdırılmışdır. Hazırda 50 nəfərin daimi işlə təmin olunduğu bağçılıq təsərrüfatında məhsul yığımı dövründə əlavə olaraq 200 nəfər mövsümi işlərə cəlb olunur. Bu il bağçılıq təsərrüfatında istehsal etdiyimiz 800 ton məhsul ölkə daxilində satılmaqla yanaşı, Rusiya və MDB ölkələrinə də ixrac edilmişdir. Cari ildə məhsul istehsalını 1400 tona çatdırmaqla daxili bazarda satış rəqabətini təmin etmək, ixrac coğrafiyamızı daha da genişləndirmək və "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə satılmasına nail olmaqdır. Rayonumuzun əsas kənd təsərrüfatı sahələrindən biri hesab olunan heyvandarlıq sahəsində də dinamik inkişaf təmin edilir. Hazırda rayonda 71 295 baş iribuynuzlu, 309164 baş xırdabuynuzlu, 281350 baş ev quşları var. Mövcud mal-qara arasında baytarlıq və damazlıq tədbirləri ardıcıl davam etdirilir, yem tədarükü işləri uğurla həyata keçirilir.

Rayonumuzda kənd təsərrüfatında özəl bölmənin daha da genişləndirilməsi , məhsul istehsalının artırılması daim diqqət mərkəzində saxlanmış, taxılçılığın, heyvandarlığın, meyvəçiliyin, baramaçılığın, tütünçülüyün, üzümçülüyün inkişafı üçün mütəmadi tədbirlər həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, istər bitkiçilik, istərsə də heyvandarlıq məhsulları istehsalının artırılması ilə yanaşı, emal olunmasının təşkili, yeni emal müəssisələrinin yaradılması, istehsal olunan məhsulların satışına köməklik göstərilməsi, aqroservis xidmətlərinin genişləndirilməsi və s. qarşımızda duran həlli vacib məsələlərdəndir.

Müddət ərzində kənd təsərrüfatı istehsalçılarının maarifləndirilməsi məqsədilə Şəki Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə bir sıra regional müşavirə və seminarlar keçirilmişdir. Bu tədbirlərdə istehsalçılara yeni texnologiya və texnikalar, payızlıq taxıl səpini kampaniyasını optimal müddətdə başa çatdırmaq, payızlıq taxıl sahələrində fitosanitar tədbirlərin vaxtında və keyfiyyətlə aparılması üçün ətraflı məlumat verilmişdir.

Şəki Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiqlənmiş titul siyahısına uyğun olaraq 2018-ci ildə şəhərin 5 küçəsində su ötürücü arxlar quraşdırılmış, piyada səkiləri əsaslı təmir olunmuş, əsas prospekt və küçələrdə mütəmadi olaraq təmizlik və yaşıllıqlara qulluq işləri yerinə yetirilmiş, 7 küçə təmir edilərək asfalt-beton örtük salınmışdır. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə çoxmənzilli ictimai yaşayış binalarının bloklarının əsaslı təmir edilməsi, həyətlərində abadlıq işləri aparılması, blokların və həyətin işıqlandırılması, dam örtüyünün əsaslı təmir edilməsi istiqamətində də işlər yüksək sürətlə aparılmışdır. Müddət ərzində 16 ədəd çoxmərtəbəli ictimai yaşayış binasının dam örtükləri və 13 ədəd binanın blokları cari təmir edilmiş, həyətyanı sahəsində abadlıq işləri aparılmaqla 150 nəfər işlə təmin olunmuşdur.

Şəhərin qərb hissəsində yerləşən "İnzibati Mərkəz" kompleksində **ulu öndər Heydər Əliyevin yeni abidəsi ucaldılmış, Heydər Əliyev Mərkəzinin və Bayraq Meydanının** tikintisi işləri başa çatdırılmışdır. 9 hektar ərazidə park salınmış, yüzlərlə yeni ağac tingləri basdırılmış, yaşıllıq sahələri salınmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sifarişi ilə Şəki şəhəri Zərifə Əliyeva küçəsində "ASAN Həyat" kompleksinin tikintisi başa çatmış, Yuxarı Baş tarix memarlıq qoruğunda qala divarları ilə əhatə olunmuş ərazidə "ASAN" layihəsinin bir qolu olan "ABAD" Keramika və Xalq Tətbiqi Sənət Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Bəxtiyar Vahabzadənin evmuzeyinin əsaslı təmiri işləri başa çatdırılmış, əvvəllər bu evdə yerləşən şəhər 3 saylı bağça üçün yeni binanın tikintisi tamamlanaraq istifadəyə verilmişdir. Tikinti işləri başa çatdırılmış 624 şagird yerlik Baş Zəyzid kənd tam orta məktəbi 2018-ci ildə şagirdlərin istifadəsinə verilmişdir.




"Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2018-ci il tarixli, 519 nömrəli Sərəncamı ilə Şəki şəhərində 25 ədəd çoxmənzilli ictimai yaşayış binalarının dam örtüklərinin təmir edilməsi işləri yüksək sürətlə və keyfiyyətlə aparılır.

"Şəki şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2018-ci il tarixli, 601 nömrəli Sərəncamı ilə Şəki şəhərində 960 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi işlərinə başlanılmışdır.

"Şəki şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2018-ci il tarixli, 600 nömrəli Sərəncamı ilə Şəki şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Şəki Şəhər İcra Hakimiyyətinə 3,0 milyon manat vəsait ayrılmışdır. Sərəncamın icrası ilə əlaqədar torpaq sahəsi seçilmiş, binanın layihə sənədləri hazırlanmışdır, digər sənədlərin hazırlanması istiqamətində işlər aparılır. Qısa müddətdə tikinti işlərinə başlanacaqdır.

Son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təhsil sahəsinə hərtərəfli qayğısının nəticəsidir. Bu diqqət və qayğı Şəkidən də yan keçməyib. Son illər rayonda 30-dan çox yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. 2018-ci ildə Təhsil Nazirliyinin sifarişi ilə dövlət vəsaiti hesabına müasir standartlara uyğun inşa edilmiş 624 şagird yerlik Baş Zəyzid kənd tam orta məktəbində 25 sinif otağı, 6 fənn kabineti, laboratoriyalar, kompüter otağı, kitabxana, bufet, akt və idman zalları yerləşir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən bu il 15-18 və 26-29 mart , 14-17 və 18-21 noyabr tarixlərində respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə tur-aksiya keçirilmişdir .

Şəki şəhərində "Dövlət İmtahan Mərkəzinin fəaliyyəti: İmtahanlarda dövlət və ictimai nəzarətin vəhdəti" mövzusunda keçirilmiş konfransda Dövlət İmtahan Mərkəzinin fəaliyyəti, 2019-cu ildə keçiriləcək qəbul və buraxılış imtahanlarının modelləri, Mərkəzin həyata keçirdiyi tələbə qəbulu, dövlət qulluğuna qəbul və digər kampaniyaların idarə olunmasında dövlət, ictimaiyyət nümayəndələrinin iştirakı haqqında məlumat verilmiş, imtahanların təşkili, imtahanlara cəlb edilən məsul şəxslərin, əlaqəli təşkilatların əməkdaşlığı, imtahanların texnologiyasında nəzərdə tutulan yeniliklər barədə ətraflı bəhs olunmuşdur.

Şəki Mərkəzi Rayon Xəstəxanası və onun tabeliyində fəaliyyət göstərən tibb müəssisələri tərəfindən 2018-ci ildə əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, sahəsində müəyyən işlər görülmüşdür. Qeyd etmək istəyirəm ki, cənab Prezidentimizin tapşırıq və tövsiyəsinə uyğun olaraq respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi, Şəkidə də dispanserizasiya uğurla aparılmışdır .

Hər il şəhərimizdə keçirilən və artıq ənənə şəklini alan "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı Şəki musiqisevərlərinin yaddaşında gözəl bir xatirə kimi qalıb. Dünya musiqi sənətinin parlaq incilərindən ibarət müxtəlif konsert proqramları, gözəl ifaçıların qatıldığı festival bizə həmişə xoş bayram ovqatı bəxş edib. "İpək yolu" Beynəlxalq Musiqi Festivalının məhz Şəkidə keçirilməsi bu şəhərin mədəni həyatında böyük bir hadisədir. Bu il 9-cu dəfə keçirilən festivalda da dünyanın tanınmış musiqi kolllektivləri iştirak etdi, şəhərimizin sakinləri və qonaqları yenə də gözəl bir musiqi bayramının şahidi oldu.

İyunun 27-də başlanan və beş gün davam edən bu möhtəşəm musiqi bayramının iştirakçıları, şəhərin qonaqları musiqisevərlər Rusiya, Qazaxıstan, Macarıstan, Türkiyə, eləcə də Azərbaycanın musiqi, rəqs və folklor kollektivlərinin maraqlı konsert proqramlarını izləmişlər.

Malayziyanın Kuala Lumpur şəhərində 7-13 fevral 2018-ci il tarixləri arasında keçirilən 9-cu "Dünya Şəhərlər Formu" çərçivəsində, YUNESKO-nun Mədəniyyət Sektorunun 12 fevral 2018-ci il tarixində "Davamlı Şəhərlər üçün Yaradıcılıq; iqtisadi inkişaf, möhkəmləndirilmiş dayanıqlılıq və sosial əhatəlilik üçün mədəniyyətin gücləndirilməsi" mövzusunda təşkil edilən təlim tədbirində Şəki Şəhər İcra Hakimiyyətinin əməkdaşı Yusif Məmmədov iştirak etmiş, Azərbaycanın Bolqarıstandakı səfirliyinin Sofiyada Beynəlxalq Qadınlar Klubu tərəfindən təşkil olunan növbəti, sayca 24-cü xeyriyyə bazarında şəhərimizin turizm potensialını nümayiş etdirilmişdir.

Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən Şəkinin turizm potensialının beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm işlər görülür.

Mən sentyabrın 27-də Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumunda çıxış edərək Şəki şəhərinin iqtisadi, turizm imkanları, mədəniyyəti haqqında məlumat vermiş, regionlar arasında əməkdaşlığın dərinləşdirilməsi üçün şəhərimizin geniş imkanlara malik olduğunu iştirakçıların diqqətinə çatdırmışam. Həmçinin şəhərin turizm potensialını görmək və təcrübə mübadiləsi aparmaq üçün maraqlı tərəflər Şəkiyə dəvət olunmuş, Rusiyanın şirkətləri və biznes təşkilatları ilə fikir mübadiləsi aparılmışdır.

Natiq sonda onu da vurğuladı ki, Nazirlər Kabinetinin 2018-ci ilin yekunlarına həsr olunan geniş iclasında çıxış edən hörmətli Prezidentimiz demişdir: **"Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır".**

Söz yox ki, günbəgün inkişaf edən, gözəlləşən Şəkinin də bu uğurlarda öz payı, dəst-xətti olacaqdır.






**İlham PƏNAHOV,**
**"Respublika".**